# *FİLOLOGİYA ELMLƏRİ*

## Ağarəhimin yaradıcılığında Qarabağ müharibəsi mövzusu

**Akif Nurağa oğlu Abbasov**
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun elmi katibi,*
*pedaqogika üzrə elmlər doktoru, professor, Əməkdar müəllim*
**E-mail:** prof.akif@mail.ru

**Rəyçilər:** p.ü.e.d., prof. H.Ə. Əlizadə,
p.ü.e.d., prof. İ.H. Cəbrayılov

**Açar sözlər:** Qarabağ, Qarabağ müharibəsi, qarabağ müharibəsi mövzusu, “Canavar balası”, “Qırmızı qar”, “Gəlinqayada qoşa məzar”

**Ключевые слова:** Карабах, Карабахская война, тема Карабахской войны, «Волчонок», «Красный снег», «Двойная могила в Гелингая»

**Key words:** Karabakh, the Karabakh war, the theme of the Karabakh war, "Wolf cub", "Red snow", "Double grave in Gelingaya"

Azərbaycan xalqı tarixən müharibələrdən əziyyət çəkmişdir. Əsrləri vərəqləmədən, iyirminci yüzillikdən uzaqlara getmədən son müharibələri – II dünya müharibəsini və Qarabağ müharibəsini yada salmaq kifayətdir.

Azərbaycan xalqı artıq iki əsrdir ki, erməni özbaşınalığından, vəhşiliyindən, barbarlığından, vandalizmindən əziyyət çəkir.

II dünya müharibəsi illərində alman-faşist işğalçıları ilə döyüşlərdə çoxsaylı azərbaycanlı həlak və şikəst olsa da, şəhərlərimiz, rayonlarımız, qəsəbə və kəndlərimiz dağıntı görmədi.

Ermənilərin ölkəmizə ərazi iddiaları, Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi ilə bağlı qanunsuz qərar qəbul etmələri, üstəgəl havadarlarının köməyi ilə keçmiş vilayətin ətrafındakı əzəli Azərbaycan torpaqlarını da işğal etməsi səbəbindən son 30 ildə həmin ərazilərdə daşı-daş üstə qoymadılar, Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Laçın, Kəlbəcər, Şuşa, Xankəndi, Ağdərə, Xocavənd, Xocalı və Əsgərandan azərbaycanlıları qovub çıxarmaları səbəbindən ölkəmizdə bir milyondan artıq qaçqın meydana gəldi. Ermənistandan və Qarabağda azərbaycanlıların çıxarılması zamanı yüzlərlə insanların qətlinə rəvac verdilər. İnsanlarımız məhz azərbaycanlı, türk əsilli olduqlarından dünyada misli görülməmiş xüsusi qəddarlıqla öldürülür, yandırılır, diri-diri basdırılır, hamilə qadınların qarınları yırtılır, insanlar iri borulara doldurularaq və boruların baş hissələri qaynaq edilirək amansız ölümə məhkum edilirdilər. Bu sözləri oxuyanda belə adam dəhşətə gəlir.

Birinci Qarabağ savaşında ərazilərimiz işğal olundu. Hazırda ikinci Qarabağ savaşı gedir. Son dərəcə böyük qüdrətə malik olan və müasir hərbi texnika ilə silahlanmış Azərbaycan ordusu düşmənə sarsıdıcı zərbələr endirir. Ermənistan silahlı qüvvələri mətin, rəşadətli döyüşçüləriniz qarşısında tablaşa bilməyib qaçırlar. İşğal altında olan Qarabağ torpaqlarının çox hissəsi artıq düşməndən azad olunub, tezliklə zəfər təbili çalacağıq. Erməni ordusu çoxsaylı hərbi texnika və canlı qüvvə itirib. Ordumuz demək olar ki, ermənilərdə hərbi texnika qoymayıb, onları ya məhv edib, ya da hərbi qənimət kimi ələ keçirib.

Ermənilər xəbis niyyətli, vəhşi təbiətlidirlər. Onların məkrli siyasətini, silahsız, dinc mülki

vətəndaşlarımıza qarşı törətdikləri vəhşi hərəkətlərini, özlərini həşərat kimi aparmalarını görüb belə qənaətə gəlirsən ki, erməniləri insan adlandırmaq qeyri-mümkündür. Döyüş meydanında duruş gətirə bilmədiklərindən, ordumuzla bacarmadıqlarından, bütün mövqelərini itirdiklərindən mülki əhalimizə divan tuturlar. Gəncə, Bərdə, Tərtər, Goranboy, Daşkəsən, Ağcabədiyə, Xızı, Abşeron, Kürdəmir və s. rayonlarına iri çaplı silahlardan, toplardan ara vermədən atəş açır, raket zərbələri endirirlər. 100-ə qədər Azərbaycan mülki vətəndaşı həlak olub, çoxmərtəbəli binalar, fərdi yaşayış evləri, mülki obyektlər darmadağın olunub, bəzi şəhər və rayonlarımız çoxlu ziyan çəkib. Mülki insanlarımız qadağan olunmuş silahlara tuş gəlib. Dünya ölkələri erməni vəhşiliyini, qəddarlığını görsə də, susur.

Reallıq budur.

Azərbaycan ədəbiyyatında, rəssamlığında, filmlərində müharibə mövzusu özünəməxsus yer tutub. Qeyd etdiyimiz kimi, biz yalnız XX və XXI əsrlərdə baş verən müharibələri diqqət mərkəzinə gətirəcəyik.

II dünya müharibə başlayanda Azərbaycan SSRİ-nin tərkibinə daxil idi. Almaniya SSRİ ilə müharibə aparırdı. Sovet İttifaqı müttəfiq respublikada yaşayan xalqların nümayəndələrini də müharibəyə səfərbər edirdi.

II dünya müharibə başlayanda respublikamızın ərazisində 87 batalyon, 1124 özünümüdafiə dəstəsi yaradılmışdı. 1941-1945-ci illərdə alman-faşist işğalçılarına qarşı müharibədə 600 mindən artıq azərbaycanlı oğlan və qız iştirak etmişdir. Beş il davam edən bu müharıbədə bütün dünyanı təmsil edən 57 milyon insan həlak olmuşdu. Onlardan 27 milyonu SSRİ-dən idi. II dünya müharibəsi səbəbindən döyüşlərdə 300 mindən çox azərbaycanlı həlak olmuşdu.

Sovet İttifaqının, o cümlədən Azərbaycanın kinostudiyası istər döyüşlərin getdiyi illərdə, istərsə də sonralar müharibənin dəhşətlərini, eyni zamanda sovet adamlarının, xalqımızın göstərdiyi əzmkarlığı, qəhrəmanlığı, igidliyi və rəşadəti əks etdirən bir sıra sənədli və bədii filmlər çəkmişlər.

O dövrdə Azərbaycan kinostudiyasının müharibədən söz açan ilk filmlərindən biri Sovet İttifaqı Qəhrəmanı İsrafil Məmmədova həsr olunmuşdu. Həmin film "Sovet pəhləvanı" adlanırdı. "Biz Bakını müdafiə edirik", "416-cı", "Cəbhə arxasında", "Vətən uğrunda", "General Həzi Aslanov" və s. filmləri də qeyd oluna bilər.

Müharibədən sonra çəkilmiş "Uzaq sahillərdə", "Mən ki gözəl deyildim", "Onun böyük ürəyi", "Bizim küçə", "Şərikli çörək", "Skripkanın sərgüzəşti", "Torpaq. Dəniz. Od. Səma", "Tənha narın nağılı", "Bakıda küləklər əsir", "Bizim Cəbiş müəllim", "Tütək səsi", "Sizi dünyalar qədər sevirdim" və s. filmlərin bəzilərində ön, bəzilərində arxa cəbhə təsvir olunur.

Azərbaycan ikinci dəfə müstəqilliyini əldə edəndən sonra Ermənistan ölkəmizə ərazi iddialarını gücləndirdi. Bu iddialar əslində Sovet hakimiyyətinin ilk illərindən başlamışdı. Hələ ötən əsrin iyirminci illərində Dağlıq Qarabağı ələ keçirə bilməsələr də, havadarlarının dəstəyi ilə onun vilayət statusu qazanmasına nail olmuşdular.

SSRİ-nin dağılması ərəfəsində (1988-ci ildən başlayaraq) ermənilər yenidən ərazi iddialarına başladılar. XX əsrin 90-cı illərinin əvvəllərində öz istəklərinə çatıb ərazilərimizi işğal etdilər.

İlk əvvəllər jurnalistlərimiz fəallıq göstərərək mətbuatda, televiziyada çıxış edirdilər. Çingiz Mustafayev, Salatın Əsgərova ermənilər tərəfindən qətlə yetirildilər. Çingiz Mustafayevin Xocalı soyqırımını əks etdirən kadrları o zaman da, hazırda da ən qiymətli sənəd, erməni vəhşiliyini sübuta yetirən faktlar kimi son dərəcə qiymətlidir.

Az sonra "Fəryad" (1993), "Haray" (1993), "Qədirin sorağında" (1993), "Laçın dəhlizi" (1993), "Ağ atlı oğlan" (1995), "Ümid" (1995), "Vətən mənə oğul desə" (1996) bədii və sə-

nədli filmləri meydana gəldi.

Bir müddət yazıçılarımız seyrçi mövqe tutdular. Belə vacib məqamda Ağarəhim vətəndaşlıq mövqeyi göstərdi.

Ağarəhim Rəhimov yazıçı deyildi. Ara-sıra hekayələr yazır, çap etdirirdi. O, bir müddət Ucar rayonu Boyat kənd məktəbində müəllim, tədris işləri üzrə direktor müavini işlədikdən sonra Bakıya gəlmiş, Azərbaycan Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutunda (hazırda Azərbaycan Respublikasının Təhsil İnstitutu) elmi işçi kimi fəaliyyətə başlamış, burada şöbə müdiri, dissertant olmuş, fəlsəfə doktoru və elmlər doktoru proqramları üzrə dissertasiyalar müdafiə etmiş, pedaqogika üzrə elmlər doktoru elmi dərəcəsi, professor elmi adı almışdı. Bir sıra monoqrafiyalar, dərsliklər yazmışdır. Sonralar – 1992-ci ildə Bakı Ali Pedaqoji Qızlar Seminariyasını (*hazırda Bakı Qızlar Universiteti*) yaratdı. Artıq 28 ildir ki, bu universitet səmərəli fəaliyyət göstərir, bu qeyri-dövlət ali təhsil müəssisəsinin yüzlərlə məzunu respublikamızın ümumtəhsil, orta ixtisas və ali məktəblərində, eyni zamanda müxtəlif təşkilatlarında çalışırlar.

Ağarəhim müəllim ötən əsrin 90-cı illərinin əvvəllərində Qarabağ müharibəsi mövzusunda əsərlərin yaradılması zərurətini nəzərə alaraq qələmə sarıldı. “Canavar balası” hekayəsini, “İkili dünyam” romanını, “Gəlinqayada tək məzar” povestini, “Əsgər anası” pyesini yazdı. O zamandan bu vaxta qədər onun onlarla bədii əsəri – romanları, pyesləri, povestləri, kinossenariləri, hekayələri çap olunub. Əsərlərinin 20 cildliyi işıq üzü görüb. Bır sıra əsərləri rus və ingilis dillərinə çevrilərək xarici ölkələrdə nəşr edilib.

Beləliklə, müəllim kimi fəaliyyətə başlayan, elmi tədqiqatlara qoşulan, pedaqoji elmlər sahəsində tanınmış alim olan Ağarəhim Rəhimov az keçmiş istedadlı yazıçı və dramaturq, kino ssenariləri müəllifi kimi tanındı. Azərbaycan Yazıçılar Birliyinin üzvü oldu.

A.N. Rəhimovun “Əsgər anası”, “Məhəbbət və cinayət”, “Pul hərisləri” əsərləri tamaşaya qoyuldu. Qarabağ müharibəsi məsələləri Ağarəhimin yaradıcılığında xüsusi yer tutur. Bu məqalədə məqsədimiz yazıçının yalnız iki əsəri – “Canavar balası” filmi və “Gəlinqayada qoşa məzar” povesti üzərində dayanmaq istəyirik. Bu povestin motivləri əsasında 1998-ci ildə “Qırmızı qar” filmi ərsəyə gəldi.

Ağarəhim kiçik bir hekayə kimi qələmə aldığı “Canavar balası”nın üzərində işləyərək onu pyesə çevirdi, sonra ssenari yazdı, xalq artisti Mərahim Fərzəlibəyovun quruluşçu rejissorluğu ilə “Canavar balası” iki seriyalı filmi çəkildi, 1997-ci ildə kinoteatrlarda, televiziya kanallarında nümayiş etdirildi, hazırda da tez-tez həmin filmə müraciət olunur.

Baş rolları mərhum Həsən Məmmədov (*Yusif kişi*) və İftixar Piriyev (*Nofəl*); digər rolları Azərbaycanın görkəmli aktyorlarından və aktrisalarından Bəsti Cəfərova, Səmayə Sadıqova (*Səriyyə arvad*), Kübra Əliyeva, Cəfər Namiq Kamal, Məcnun Hacıbəyov, Bürcəli Əsgərov, Əjdər Həmidov, Sabir Məmmədov, Elxan Ağahüseynoğlu, Ələsgər Məmmədoğlu, Rövşən Kərimduxt, Kazım Həsənquliyev və b. ifa edirlər.

Bunu da qeyd etmək istəyirəm ki, filmin redaktoru bu sətirlərin müəllifidir.

Yusif kişi at belində meşəyə yollanarkən ağlayan uşağın səsini eşidib ayaq saxlayır. Səs gələn tərəfə yollanır və yolun kənarına qoyulmuş bələkdə olan bir uşaq görür. Ətrafa nə qədər boylanırsa, nə qədər çağırışa (“Ay bu uşağın yiyəsi”), səsinə səs verən, körpənin dalınca gələn olmur. Bunu görüb uşağı qucağına alıb evə gətirir. Sən demə, Yusif kişi ilə Səriyyə arvad xeyli müddət ailə qurmalarına baxmayaraq övlad üzünə həsrətdirlər. Yusif kişi baş verənləri həyat yoldaşına danışır. Uşağa Nofəl adı verir, onu öz övladları kimi böyüdür, uşağa təhsil və tərbiyə verirlər.

İllər keçir. Ermənilər Azərbaycana torpaq iddialarındadırlar. Birinci Qarabağ müharibəsi başlayır. Nofəl də cəbhədədir. Zabit kimi onun üzərinə çox böyük vəzifələr düşür. Ailə, Və-

tən, yurd sevgisidir bizi qanadlandıran, bizi ucalara qaldıran! Vətən qollarını geniş açaraq öz övladlarını yetişdirir, sağlamlığı qayğısına qalır, onu təhsilləndirir, işlə təmin edir. Hər bir şəxs milli iftixar, milli mənlik, milli və şəxsi şərəf, milli ləyaqət hissinə yiyələnməlidir. Yusif kişi sadə, ləyaqətli, zəhmətkeş kənd əhlidir. Halal əməyi ilə dolanır və ailəsinin ruzusunu gətirir. Vətəni sevir, torpaq, yurdsevərdir, ailəcanlıdır. Nofəli öz doğma oğlu bilir, onunla fəxr edir. İstəməz ki, onun dırnağına da daş dəyə.

Səriyyə arvad da eləcə. Evdar qadındır, ərinə sədaqətlidir. Nofəli sevə-sevə böyüdüb. Onun qayğısız böyüməsinə çalışıb. Həmişə ona elə gəlib ki, Nofəl başqasının uşağı deyil, onu özü doğub, doqquz ay onu bətnində gəzdirib.

Bu ailənin dolanışığı daşdan çıxıb, həmişə Allahlarına şükür ediblər ki, bir tikə çörəkləri var, başqasına möhtac deyillər. Həmişə Allahlarına şükür ediblər ki, sonsuz qalmadılar, oğul yiyəsi oldular. Nofəl onların ümidi, pənahıdır. Onun boyuna-buxununa baxıb qürrələndilər.

Sevindilər ki, övladları da başqa Vətən oğulları kimi cəbhəyə yollanıb, düşmənə qarşı vuruşur.

Nofəlin sərəncamında əsgərlər var, onlar öz komandirlərindən tapşırıqlar alırlar, döyüşə yollanırlar. Bu əsgərlər komandirlərinə arxayındırlar. Cavan, təcrübəli, səriştəli, əzmli, qüvvətli komandirləri var.

Fəqət son zamanlar döyüş əməliyyatları alınmır. Düşmən haradansa onların planlarından xəbər tutur, azərbaycanlıların mövqelərinə zərbələr vururlar. Hamı təəccüb içərisindədir.

Sən demə... Məlum olur ki, Nofəl erməni qəsbkarlarına satılıb. Ona görə Azərbaycan tərəfi uğursuzluğa düçar olub. Komandanlıq bundan xəbər tutur. Nofəlin məhkəməsi baş tutur. Məhkəmə iclasında Yusif kişi ilə Səriyyə arvad da iştirak edirlər. Onlar özlərinə yer tapa, xəcalətdən başlarını qaldıra bilmirlər. Axı bu xəyanətkar onların övladıdır. Övladlığa götürsələr də, onlarla bağlıdır. Onun valideynləri hesab olunurlar.

Məhkəmənin sədrinin məlumatından aydınlaşır ki, müttəhim Nofəl Kələntərli Çiçəkli dərə bölgəsində Azərbaycan hərbi əməliyyat qrupunun sirlərini erməni işğalçılarına satmaqda, Günəşli kənd sakinlərindən bir dəstə azərbaycanlı qocanı, qadını, uşağı meşədə qəsdən qırğına verməkdə təqsirli bilinir. Şahid qismində azərbaycanlı döyüşçülər, erməni əsirlər dindirilir. Nofəl nə qədər özünə haqq qazandırmağa çalışsa da, ona böhtan atıldığını söyləsə də, təqsiri, xəyanəti sübuta yetirilir.

Sən demə, bütün hərbi sirləri - əsas hərbi hissənin yerini, strateji yüksəklikləri tutmağın əlverişli yollarını, hücumun vaxtını, atəş açılacaq nöqtələri, əsgərlərin sayını düşmənə xəbər verir, əvəzində onlardan pul alırmış. Eyni zamanda meyitləri ermənilərdən alıb yiyələrinə pulla satırmış. Satqınlıqla, Vətənə xəyanətlə qazandığı pullar Fransa bankına onun adına açılmış hesaba köçürülürdü. Hətta erməni kəşfiyyat orqanları ilə istədiyi vaxt əlaqə saxlamaqdan ötrü onun xüsusi parolu da varmış: NYK (Nofəl Yusif oğlu Kələntərli).

Şahidlər dindirildikcə, ittihamlar səsləndikcə məhkəmə zalında əyləşmiş Yusif kişi ilə Səriyyə arvad xəcalətlərindən başlarını aşağı salıb, tər tökür, canlarını hara qoyacaqlarını bilmirlər. Axı onlar Nofələ belə tərbiyə verməmişlər. Meşəyə atılmış kimsəsiz uşağa gözlərinin yağını yedirtmiş, həyatlarını ona həsr edərək boya-başa çatdırmışlar.

Yusif kişi söz alıb danışır. Bildirir ki, o, uzaq dağ kəndi Göytəpədən gəlib. Yanımda əyləşən, xəcalətindən adamların üzünə baxa bilməyən ağbirçək Səriyyə arvadla Nofəli böyüdüblər. Görünür onlar pis tərbiyəçi olublar, Vətən, xalq üçün oğul yox, qənim, cinayətkar, düşmən yetiriblər. Yusif kişi ər-arvad özlərini də günahkar sayır, məsuliyyət daşıdıqlarını deyir. Bildirir ki, daha onun yaşamağa, başıma papaq qoymağa, el-oba içərisində gəzməyə haqqı yoxdur.

O, Nofəli meşədə necə tapdığını, evə necə gətirdiyini danışır.

“*Yusif*. Bu uşağı bizə Allah göndərib. Saxlayarıq, böyüdərik, tərbiyə edərik. O, atalı-analı olar, biz də övlad sahibi. Sevinmirsən?

*Səriyyə*. Sevinməyinə sevinirəm. Camaata bəs nə deyərik?

*Yusif*. Gedib bir müddət anangildə, öz kəndinizdə qalarsan, geriyə qayıdanda deyərik ki, uşaq orada doğulub.

*Səriyyə*. Düz deyirsən. Lazım deyil ki bilsinlər. Yoxsa o böyüyəndən sonra bizim ögey olduğumuzu ona deyə bilərlər (*Səriyyə birdən susur*). Bu ki, erməni uşağıdır.

*Yusif*. Hardan bildin?

*Səriyyə*. Erməni arvadları uşağı belə bələyirlər. Biləyindəki kiçik xaçı görürsən?

*Yusif (əhəmiyyət vermir).* Xaçı rədd elə getsin. Onun erməni olması alnına yazılmayıb ki. Nə fərqi var xristian, ya müsəlman. Hamısının yaradıcısı o böyük Allahdır” (1, s. 444-445).

Yusif kişi üzünü salona tutaraq:

“— O gündən biz ona Nofəl adını qoyduq. O bizim oğlumuz oldu (*üzünü Nofələ tutur*). Tfu sənin üzünə, nankor insan! Nə idi səni bu cinayətlərə təhrik edən? Səni küçük balası kimi meşəyə atan valideynlərinə xidmət etmisən. Necə oldu ki, səni “oğul” deyə böyüdən, ərsəyə çatdıran Yusif kişinin zəhmətini asanlıqla yerə vurdun?! Gecələr yatmayıb beşiyin başında keşik çəkən, sənə analıq qayğısı göstərən Səriyyəni xar elədin? Nə idi bu xalqın, millətin təqsiri, a namərd? Sənin erməni qanın nə qədər güclü imiş, ay yaramaz? Doğru deyirlər, ayını, pələngi, meymunu əhliləşdirmək, tərbiyə etmək olur, ancaq canavarı yox!!! Bu nankora oğul deyən yerdə dilim quruyaydı” (1, s. 445-446).

Səriyyə arvadın dedikləri: “Xəcalətimdən özümə yer tapmıram. Mən də haqqımı tələb edirəm (*Nofələ baxaraq*). Qaytar Kələntərli familiyasını, Nofəl adını, Yusif ata, Səriyyə ana adını!!!”

Zaldan səs eşidilir:

— Bəs onun adı nə olsun?

Səriyyə. Canavar balası!!!” (1, s. 446).

Haqqında danışdığımız kinossenari, onun əsasında ekranlaşdırılmış film özünün sanbalına görə son dərəcə dəyərlidir. Müəllif Ağarəhim oxucunun, tamaşaçının diqqətini bir sıra məsələlərə cəmləşdirir. Onları nəzərdən keçirək:

1. Vətəni, doğma torpağı sevmək, ölkəmizin maddi və mənəvi sərvətlərinə görə iftixar hissi keçirmək, xarici ölkələrdə, bütün dünyada onu ləyaqətlə təmsil etmək, lazım gəldikdə əldə silah Vətəni müdafiə etmək bizim hər birimizin müqəddəs vətəndaşlıq borcumuz və vəzifəmizdir. Məmməd Araz demişkən, “Vətən daşı olmayandan olmaz ölkə vətəndaşı”.

2. Vətənə xəyanət etmək olmaz. Vətən xainləri ciddi cəzalandırılır, xalqın lənətinə tuş gəlir.

3. Ata-ana haqqını itirmək olmaz. Ailənin şərəfini qorumaq lazımdır. Nofəl Vətənə xəyanət yolunu tutarkən öz ailəsini də nəzərə almalı idi. Öz əlinin zəhməti ilə yaşayan, yoxsul həyat tərzi keçirən, lakin halallığı özünə vacib sayan Yusif kişini, bütün günü evdə-eşikdə dolanan, ailənin dərd-səri ilə yüklənən anası Səriyyə arvadı gözləri qarşısında canlandırmalı idi. Yusif kişi ilə Səriyyə arvad gecə-gündüz cəbhədə olan Nofələ görə yada salır, narahat olur. Diqqət yetirək:

“*Səriyyə*. Bilirəm, Nofəlin fikrini çox çəkirsən.

*Yusif*. Gör nə vaxtdır ondan xəbər yoxdur.

*Səriyyə*. Bəlkə uşağın başında bir iş var.

*Yusif*. Allah eləməsin. Nofəl ağıllı oğlandır, ona heç bir şey ola bilməz.

*Səriyyə*. Təki balamız salamat olsun. Allah hamının balasını xəta-bəladan qurtarsın, bizimki də onların içində" (1, s. 403).

Nofəl isə bir anlıq da olsa nə kəndi, nə ata-anasını yadına salır. Döyüşlər bitəndən sonra evlərinə qayıtmaq barədə fikirləşmir. Vətən xaini olaraq qalır, ötəri ehtirasını, erməni qızı Rimaya bağlılığını ata-anasından üstün tutur, satqınlıqla, xəyanətlə əldə etdiyi pulları götürüb xaricə qaçmaq istəyir. Fikir verək:

*"Nofəl (Rimaya).* Bu müharibə, bu "ana vətən" nə sənə lazımdır, nə də mənə. Mən ağıllı o adama deyərəm ki, müharibədən də öz xeyri üçün istifadə edə bilsin. Sən mənim xoşuma gəlirsən. Mənim pulum çoxdur. Bu Günəşli əməliyyatından sonra mənim fikrim qaçmaqdır. Gəl birlikdə qaçaq. Günəşli kəndinin əməliyyat planını (*düşmənə təslim etmək planını – A.A.)* bağışlayıram sənin qara gözlərində" (1, s. 437).

Göründüyü kimi, sən demə, Nofəl bu müharibəyə torpaqlarımızı qorumaq üçün deyil (*müharibə, bu "ana vətən" nə sənə lazımdır, nə də mənə*), qazanc əldə etmək üçün (*ağıllı o adama deyərəm ki, müharibədən də öz xeyri üçün istifadə edə bilsin) qatılıb.* Odur ki, Günəşli kəndini işğal etmək planını hazırlayıb ermənilərə ötürür, əvəzində çoxlu pul alıb, gedib xarici ölkələrin birində kef içərisində yaşayacaq. Bu sadəlövh, ağılsız adam başa düşmür ki, Rima onu ələ almaq üçün göndərilən düşmən agentidir, Nofəldən öz məqsədləri üçün istifadə edir. Diqqət yetirək:

"Rima. Bu vətən xaini nə qədər sadəlövhdür. Mən Böyük Ermənistan yolunda ölümə də hazıram. Belə səfehlərin köməyi ilə Azərbaycanın hələ çox kəndlərini, çox şəhərlərini tutacağıq" (1, s. 437).

Nofəl isə, bu düşmən qızına ata-anasından daha çox diqqətlidir. Onun bədbəxtliyi bundadır. Gözləri qapanıb, ayaqlarının altını görmür. Vətəninə, xalqına, döyüş yoldaşlarına, kəndinə, uşaqlıq dostlarına, ailəsinə xəyanət edir. Hansısa erməni fahişəsinin qarnından çıxan, lazımsız əşya kimi çöllərə atılan bu yaramaz, murdar şəxs, bu həşərat öz ehtirasının quluna, pul hərisinə çevrilir.

Hazırda ölkəmiz ikinci Qarabağ müharibəsini yaşayır. Erməni faşist işğalçılarına layiqli cavab verir, torpaqlarımızdan onları "iti qovan kimi" qovuruq. Tezliklə Qarabağ düşmən tapdağından azad olacaq. Yazıçı Ağarəhimin "Canavar balası" kino ssenarisində və eyni adlı filmdəki ideyalar bu günümüz üçün də aktualdır. Döyüş meydanında satqınlıq edən şəxs hökmən Nofəlin taleyini yaşamalı olacaq! Vətən xaini ağır cəzaya layiqdir. İradəsi zəif olanlar, düşmənə satılanlar bunu bilməlidirlər.

"Gəlinqayada qoşa məzar" povestində də birinci Qarabağ müharibəsi zamanı baş verən hadisələr dolğun bədii boyalarla öz ifadəsini tapmışdır. Əsərdə bir azərbaycanlı ailənin üzləşdiyi faciə diqqət mərkəzinə gətirilir. Azərbaycan kəndlərinin birində yaşayan Əkrəm kişi ilə Xədicə arvadın sevinci aşıb-daşır. Oğul nəvələri Sədaqətlə Növrəstə, Sədaqətin əri Rəşad və onların körpə oğlu Sakit bu ailəyə qonaq gəliblər.

Kənd öz sakit həyatını yaşayır. Axşam düşüb. Xəfif külək könülləri oxşayır. Qonaqların gəlişinə şad olan Əkbər kişi qara qoçu onların ayaqları altında kəsir. Süfrə başında əyləşirlər. Yeyib-içəndən sonra söhbətə başlayırlar. Birdən ətrafın qərib sakitliyi pozulur, işıqlar sönür. Sən demə, erməni cəlladlar kəndə hücuma keçmiş, silahsız əhaliyə divan tutmağa başlamışlar. Kənddə hamı bir-birinə dəyir. Qışqıran kim, inildəyən kim, yerə yıxılaraq canını tapşıran kim?! Azğın ermənilər heç kimə aman vermir, misli görülməmiş qəddarlıq törədirlər.

Diqqət yetirək. *Povestdən*: "Bu kənddə boya-başa çatan, onun suyunu içən, çörəyini yeyən ermənilər qonşu yaşadıqları, hər gün duza, çörəyə borca gəldikləri azərbaycanlılara qənim kəsilərək, hər cür cinayət törədirdilər. İndi də gecə yarısı işıq mənbəyini onlar partlatmışdılar.

Bir an içərisində kənd əhlinə elə gəldi ki, dünya qopub dağılır. Mərmilər kəndin müxtəlif yerlərinə düşür, partlayır, evləri, damları dağıdır, yandırır, ətrafa səpələnən qəlpələr günahsız adamları, dilsiz-ağızsız heyvanları parçalayıb tökürdü. Yaxınlıqda partlayan qrad mərmisinin zərbəsindən Əkrəm kişinin evi də silkələndi. Əkrəm kişi:

— Yığışın, evdən çıxaq. Evə mərmi düşə bilər.

Bu vaxt avtomat, pulemyot gülləleri həyətə yağış kimi yağdı (2, s. 17-18).

Vəhşi ermənilər Əkrəm kişi ilə Xədicə qarını, Rəşadı öldürürlər. Sədaqət qucağında balaca Sakit, bir də Növrəstə meşəyə qaçırlar. Kənd əhlinin bir qismi də buradadır. Ermənilər onları tapmasınlar deyə gizlənirlər. Düşmənlər onları izləyirlər.

Meşədə xeyli adam vardı. Hər tərəfi qar bürümüşdü, şaxta qılınc kimi kəsirdi. İnsanlar ayaqyalın, başıaçıq, nazik paltarda evdən çıxan bir-birinin ardınca dar cığırla gəlib meşəyə çıxmışdılar. Nəfəslərini belə çəkmirlər ki, ermənilər onların yerlərini bilərlər. Fəqət qorxu içərisində, aclıqdan və soyuqdan rahatsız olan körpə Sakit hey ağlayırdı. Hamı təlaş içərisindədir... Fəqət Sakitin ağlamağı erməniləri duyuq sala bilərdi. "Bu qədər qızın, gəlinin isməti ləkələnəcəkdi, qocalar, günahsiz uşaqlar qırğına veriləcəkdir (2, s. 25).

Körpəsi ağladığına, səs qopardığına görə Sədaqət xəcalət çəkir, lakin əlindən bir iş gəlmirdi. Hamının gözü Sədaqətə zillənmişdi. Yəni "bu körpənin səsini kəs". Körpə sakitləşməsə, düşmən bu qədər adamı tapıb qətlə yetirəcəkdi.

Əlacsız qalan Sədaqət körpəsini öz əllərilə boğur və tutduğu əməldən dəhşətə gələrək yerə sərilir ("Sədaqət gözlərini yumdu. Yaş yarımlıq körpəsi Sakitin başını sağ əlinə aldı, körpənin ağzını öz sinəsi ilə bərk-bərk qapadı. Körpə çox çalışsa da, başını anasının əlindən çıxara, ağzını sinəsindən arala ya bilmədi. Başını kəsilən quzu kimi doğma anasının isti qoynunda, bir zaman əlləri ilə bərk-bərk yapışdığı, əmdiyi döşləri arasında Sakitin ürəyi partladı. Ana özündə deyildi. Üzü üstə yerə yıxıldı. Babasının, nənəsinin, ərinin meyitləri üzərində ağlamağa macal tapmayan Sədaqət indi öz əlilə o dünyaya göndərdiyi balasının üz-gözünü yalayır, öpür, göz yaşları axıdırdı. Növrəstə Sakiti Sədaqətin qucağından aldı. Əmi dostusu Sona Sədaqətin qolundan tutdu:

— Qalx, qızım, qalx! – deyə onu ayağa qaldırdı.

Əvvəl hamı elə başa düşürdü ki, körpə anasının qucağında soyuqdan donub. Uşağa baxanda Kərəm kişinin heyrətdən gözləri böyüdü. Ağ sifətli, totuq Sakitin üzü-gözü, dodaqları, alnı, boyun-boğazı qaralmışdı. Uşaq boğularaq öldürülmüşdü" (2, s. 27).

Yazıçı ananın bu qədər insanı xilas etmək, ölümün, işgəncənin pəncəsindən qoparmaq üçün qəlbparçalayan bir tədbirə əl atmasını ürək ağrısı ilə təsvir edir. Belə hərəkətə yalnız böyük ürəyə sahib olan insanlar yol verə, öz ciyərparasının qatili ola bilər.

Ağarəhim erməni vandalizmini parlaq boyalarla, eyni zamanda böyük nifrət və hiddətlə qələmə alır. Erməni adlanan bu yaramazlar, həşəratlar, insan qatilləri azərbaycanlıları xüsusi qəddarlıqla, həzz ala-ala öldürürlər. Yazıçının məqsədi düşmənə nifrət hisslərini alovlandırmaqdır. Bu, həmin ermənilərdirlər ki, vaxtilə qaynar samovarı azəri türklərinin kürəklərinə sarıyırdılar. İndi də vəhşiliklərindən qalmırlar. Diqqət yetirək: "Arxasını dirəyə söykəyərək boğaza qədər mis məftillə Kərəməlini dirəyə sarıdılar. Surik əvvəlcə Kərəməlinin sağ, sonra da sol qulağını kəsdi.

Aruşavel Babayan:

— Burnu da bir az böyük görünür. Onu da adam burnuna oxşadın.

Kərəməlinin burnunu da kəsdilər.

Mərdan kişi dözə bilmədi. Şefin üstünə cumdu.

Suren Akopyan üzünü şefə tutaraq:

— Əmrinizi gözləyirik! – dedi.

— Başı kəsilsin!

Əsirlərin gözləri qarşısında onun başını kəsdilər və qulaqlarından tutaraq onu şefin ayaqları altına atdılar" (2, s. 33-34).

Dirəyə sarılı qalan Kərəməli şefi söyməyə başlayanda əmr verildi ki, onu yandırsınlar.

"Gəlinqayada qoşa məzar" povestində ermənilərin əsirlərlə davranış tərzi göstərilir. Onlar mal tövləsinə salınırlar. "Ala inəklərlə əsirləri fərqləndirən şey aralarında çəkilən taxta divar" olur. Ölməmək üçün əsirlərə bir-iki tikə çörək atılır, onlar hər cür təhqirə, alçaldılmalara məruz qalırlar.

Povestdə diqqət yetirilən mövzulardan biri də qız-gəlinlərinin öz ismətlərini qorumaq üçün fədakarlıq etmələri, ölümə belə razı olaraq mənfur ermənilərə tabe olmamalarıdır. Diqqət yetirək: "Sədaqət öz körpəsini bağrına basıb, yeniyetmə bacısı Növrəstə ilə baş götürüb qaçırdı. Ona görə yox ki, onlar ölümdən qorxurdular, qanlarının tökülməsindən çəkinirdilər. əsla yox, onlar qadınlıq, qızlıq ləyaqətlərini, arlarını, ismətlərini götürüb qaçırdılar" (2, s. 22).

Və yaxud: "Axşamdan xeyli keçmişdi. Razmik, Stepan,  Surik və Qarsevan əllərində fanar içəri girdilər.

— Sədaqət bizimlə getməlidir, bu, şefin əmridir.

Bacılar:

— Əclaflar, sizin alçaq  niyyətiniz heç zaman baş tutmayacaq!

İstədiklərinə nail ola bilmədiklərindən tövlənin qapısını bağlayıb şefin hüzuruna getdilər (2, s. 51). "Sədaqət cibindən əl dəsmalını çıxardı. Gündüz qarın altından tapdığı və əl dəsmalına bükdüyü köhnə, paslı alması çıxartdı. Sol qolunun bilək damarlarını kəsdi. Sonra da almas bacısının əlinə düşməsin deyə onu bir neçə yerə bölüb inəklər yatan tərəfə atdı. Sədaqətin qolundan qan ara vermədən axırdı. (2, s. 52).

Yazıçı Ağarəhim öz qənaətlərini Kərəm kişinin dili ilə deyir: "Kərəm kişi əsirlərə üzünü tutub dedi: Ermənilərə əsir düşməyək, namusumuzu, qeyrətimizi ayaqlar altına atmayaq deyə bir zaman doğma övladını boğub öldürən Sədaqət indi də şərəf və ləyaqətini qorumaq üçün özünü öldürdü. Ananın südü sənə halal olsun, qızım" (2, s. 54).

Qapıçı Razmik Qriqoryan Növrəstəni ələ gətirmək istəyir. Tez-tez onu yanına çağırır. Növrəstə də etiraz etməyib onun otağına getdiyindən əsirlər elə bilirlər ki, qız ona təslim olub. Hətta onu "fahişə" adlandırırlar ("Əsirlər Növrəstəyə namussuz, ləyaqətsiz, milli satqın kimi baxır, onunla danışmaq istəmirdilər. Növbəti axşamların biri idi. Qapıçı Razmik Növrəstəni öz otağına apardı. Qadınlardan biri: "Fahişəni yenə apardı oğraş" deyə mızıldandı"). Sən demə, Növrəstənin planları varmış. O, Razmik Qriqoryanı yaxına buraxmır. Razmik istədiyinə nail olacağını düşünərək tələsmir. Növrəstə bir gün fürsət tapıb bıçaqla onu öldürüb onun avtomatını və tövlənin açarını götürür və əsirləri xilas edir ("Növrəstə: "indi növbə mənimdir" – deyə düşündü. Güclü zərbə ilə bıçağı ağzı yuxarı yatan Razmik Qriqoriyanın mədəsinin düz üstünə endirdi. Tiyə dəstəyə qədər Razmikin bədəninə işlədi. Qız sol əli ilə onun ağzını qapayaraq:

— Alçaq! Əclaf! Yaramaz! Heyvan! Donuz balası! – deyə bıçağı çıxarmadan o tərəf bu tərəfə burdu").

Qeyd etdiyimiz kimi, Qarabağ müharibəsi yazıçının bir çox əsərlərində özünə yer tutub. Təbii ki, onların hamısına bir məqalə çərçivəsində münasibət bildirmək olmur. Biz Ağarəhimin iki əsəri ilə bağlı fikrimizi bildirdik. Ədib "Uçurum", "Qırmızı qar", "Canavar balası", "Vicdan məhkəməsi", "Əsgər anası", "Ovlaq keçidi", "Xəyanət", "Haray" kimi dəyərli bədii yaradıcılıq məhsullarında da erməni qəsbkarlarının iç üzünü, xain, namərd xislətini, vəhşili-

yini, qəddarlığını, heyvani təbiətini ustalıqla, yüksək sənətkarlıqla açır.

Ağarəhimin hekayə, roman, povest, pyes və kinossenariləri ilə tanış olduqda adamda belə təəssürat yaranır ki, müəllif Vətənimizin bütövlüyü, sərhədlərimizin toxunulmazlığı uğrunda əlində silah erməni-faşist işğalçıları ilə döyüşmüş, onların vandalizminin, məkrli siyasətinin, vəhşiliyinin canlı şahidi olmuş, əsərlərini güllə yağışı altında qələmə almışdır. Əzəli torpaqlarımızın xain, namərd qonşularımız - ermənilər tərəfindən işğal olunması, qızların, qadınların əsir düşmələri onun ürəyini ağrıdır.

Ağarəhimin qələmə aldığı "Canavar balası" hekayəsi əsasında "Canavar balası" filmi - 1997-ci ildə, "Gəlinqayada qoşa məzar" povesti əsasında "Qırmızı qar" filmi isə, 1998-ci ildə ekranlaşdırılmışdır.

Hər halda deyə bilərik ki, Qarabağ müharibəsindən bəhs edən bir çox filmlər Ağarəhimin haqqında söz açdığımız filmlərindən sonra meydana gəlmişdir. Diqqət yetirək: "Sarı gəlin" (1998), "Arxada qalmış gələcək" (2004), "Girov" (2005), "Yalan" (2006), "Biz qayıdacağıq" (2007), "Bir addım" (2009), "Yaddaş" (2010), "Dolu" (2012), "Xoca" (2012), "Yarımçıq xatirələr" (2015), "Xüsusi təyinatlı İbad" (2016), "Son nəfəsədək" (2018),

Ölkəmizin ərazisində II Qarabağ müharibəsi gedir. Bir-birinin ardınca vaxtilə erməni işğalı altında olan şəhərlərimiz, rayonlarımız, kəndlərimiz, strateji yüksəkliklərimiz azad olunur. Düşmən Azərbaycan ordusu qarşında dayanmaq iqtidarında deyil. Tezliklə, lap tez bir zamanda bütün Qarabağ torpağıni işğaldan azad edəcəyik!.. Torpaqlarımız azad nəfəs alacaq!

Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!

İnanırıq ki, birinci Qarabağ müharibəsinə əsərlər həsr etmiş yazıçı Ağarəhim II Qarabağ müharibəsini də yüksək sənətkarlıqla, coşqun həvəs və iftixarla vəsf edəcəkdir.

**Məqalənin aktuallığı.** Qarabağ müharibəsi mövzusunda bədii əsərlərin, filmlərin, incəsənət nümunələrinin yaradılması vacibdir. Bu məqalə ona görə aktuallıq daşıyır ki tanınmış yazıçı Ağarəhimin bədii yaradıcılığında Qarabağ müharibəsi mövzusuna həsr edilmişdir.

**Məqalənin elmi yeniliyi.** Məqalə Qarabağ müharibəsi mövzusu yazıçı Ağarəhimin "Canavar balası" kinossenarisi və filminə, eyni zamanda "Gəlinqayada qoşa məzar" povestinə istinadən diqqət mərkəzinə gətirilmişdir.

**Məqalənin praktik əhəmiyyəti tətbiqi.** Məqalə Qarabağ müharibəsi mövzusu üzrə tədqiqat aparan doktorant və dissertantlar, magistrantlar üçün faydalı ola bilər.

## Ədəbiyyat

1. Ağarəhim Rəhimov. Pyeslər və kinossenarilər. Bakı: Nurlan, 2003, s. 396-449.
2. Ağarəhim Rəhimov. Gəlinqayada qoşa məzar. Bakı: Ozan, 1997, s. 11-74.

**А.Н. Аббасов**

## Тема Карабахской войны в творчестве агарагима

## Резюме

Профессор, писатель Агарагим Рагимов ещё в начале 90-х годов прошлого века взялся за перо с учетом необходимости создания произведений о карабахской войне.

Им были написаны рассказ «Волчонок», роман «Мой двойной мир», повесть «Двой-

ная могила в Гелингая», пьеса «Мать солдата». С тех самых пор до настоящего времени опубликованы десятки его художественных произведений - романы, пьесы, повести, киносценарии, рассказы. Увидели свет 20 томов его сочинений. Ряд его произведений переведены на русский и английский языки и изданы за рубежом.

Особое место в работе Агарагима занимают вопросы карабахской войны. В данной статье наша цель - сосредоточить внимание только на двух работах автора – фильме «Волчонок» и повести «Двойная могила в Гелингая».

**A.N. Abbasov**

## Theme of the Karabakh war ın the works of agaragım

## Summary

Professor, writer Agaragim Rahimov took up his pen in the early 90s of the last century, taking into account the need to create works about the Karabakh war.

He wrote the story "Wolf cub", the novel "My Double World", the story "The Double Grave in Gelingaya", the play "The Soldier's Mother". Since then, dozens of his works of art have been published - novels, plays, stories, screenplays, short stories. We saw the light of 20 volumes of his works. A number of his works have been translated into Russian and English and published abroad.

A special place in the work of Agaragim is occupied by the issues of the Karabakh war. In this article, our goal is to focus on only two works of the author - the film "Little Wolf" and the story "The Double Grave in Gelingaya".

**Redaksiyaya daxil olub:** 03.11.2020